*(Əvvəli ötən sayımızda)*

# Qurban bayramının mənəvi vəhdət modeli kimi etnokulturoloji sistemdə yeri və funksiyası

Göründüyü kimi, Fatma bulaqda çimməklə yeni zahiri görkəm əldə edir. Eynilə qızdırma bulaqlarında çimənlər də yeni sağlam bədən əldə edirlər.

Azərbaycan ən geniş yayılmış ocaqlar övliyaların məzarlarının yerləşdiyi ziyarətgahlardır. İnanca görə, məzarda yatan övliyanın ruhu ona verilən qurbanın müqabilində insanlara kömək edir. Məsələn, Şəki bölgəsində əgər axır çərşənbə günü ölən olarsa, inanırlar ki, o evdə bir nəfərin də həyatı təhlükədədir. Odur ki, qəbrin içinə, meyidin baş tərəfinə kiçik bir xurma budağı qoyarlar, torpaqla örtüləndən sonra isə üstünə çiy yumurta sındırıb tökərlər [4, s. 55]. Yaxud Şəkidə ölüyə xatir verilən ehsan "xeyrət" adlanır. Belə hesab edilir ki, bu ehsanla ölünün ruhu şad olur [5, s. 107].

Əcdad ruhu ilə bağlı inanclar rəngarəngdir. Bütün bunların hamısının əsasında ölmüş əcdadın diri olması haqqındakı təsəvvür durur. Məsələn, Ə.Əsgərov yazır ki, "əcdadlarımız tuğun (bayrağın - Ş.A.) içərisində bəlli bir ruhun yaşadığına inanırdılar... göytürklərdə, uyğurlarda, qaraxanlılarda bu ruh qurd idi. Orxan abidələrində o, altun şuna (qızıl qurd) adlanır. Göytürklərin bayrağında da məhz qızıl rəngində olan qurd təsviri həkk olunmuşdu. Göytürklər bu qurda əcdad kimi tapınırdılar" [14, s. 118].

Daş pirləri ilə bağlı qurbanvermələrin də əsasında daştorpaq stixiası ilə bağlı inanclar durur. Məsələn, hal-hazırda faşist Ermənistan dövlətində işğal altında olan Göyçə elinin Çaxırlı kəndinin arxasında Pir dağı deyilən yer var. Dağın zivəsində gecələr şam yandığını görənlər olub. Sonra orada məscid tikiblər. Adamlar oraya nəzir gətirir, qurbanlar kəsirmişlər. Deyilənə görə, Qarabulaq kəndindən olan bir varlı adam Pir dağındakı dağılmış məscidin daşından gətirib, öz evinin tikintisində istifadə etmək istəyir. Heç kəs onu fikrindən döndərə bilmir. Güc-bəla ilə bir daşı gətirə bilir. Gecə yuxuda ağ əmmaməli, ağ çuxalı bir kişi daşı öz yerinə qaytarmağı əmr edir. Bu yuxu iki dəfə də təkrar olunur. Kişi qorxusundan daşı yerinə qaytarır [3, s. 155-157].

Gecə yuxuda gələn ağ əmmaməli, ağ çuxalı kişi Pir dağının ruhudur. Bu da ona göstərir ki, qədim türklər dağları, daşları canlı şəkildə təsəvvür edirmişlər. Bəhaəddin Ögəl bu haqda yazır: "Oğuz türkləri daş-dağ ruhundan güc almalarına dərin inam bəsləmələrinə görə dağları bir torpaq, daş yığını kimi deyil, hisslər və duyğularla yoğrulmuş, insanlaşmış varlıq kimi düşünmüşlər" [17, s. 424].

Daş pirlərində müxtəlif məqsədlərlə qurban verilməsi də daş ruhunun, əsasən, valideyn funksiyasını yerinə yetirməsi ilə bağlıdır. Bunu biz Azərbaycandakı daş pirlərinin nümunəsində açıqaydın müşahidə edə bilirik.

***(Davamı var)***

***Şakir ALBALIYEV,***
***AMEA Folklor İnstititu,***
***filologiya üzrə fəlsəfə doktoru,***
***dosent***

Kredo.- 2021.- 16 iyun.- S.14.